# ÖZ YERİ OLAN ADAM

## Dağı göstərmirlər, görürlər

**Mənə görə həyatda ən çətin işlərdən biri atacağın addımı, əlini uzadacağın əşyanın, verəcəyin qərarın mahiyyətini bilməkdi... məramını anlamaqdı. Bax, bunu edə biləndə onda çiynindən yük bir az qalxır. Və özün də hiss etmədən daxili bir əminliklə o addımı atırsan... o əşyaya əl uzadırsan... o işin dalınca gedirsən. Çünki səni aparan içindəki inamdı. İnamdan böyük güvən isə yoxdu. Buna mən özüm kimi inanıram. Lap elə bu yazının özü də nə vaxtdı ki, içimdə kilkilə kimi öz işini görməkdədi. Gah daş-daşı yeyir, gah üyünməyən buğda qovuda çevrilir, gah da ələyin bütün gözlərindən rahatca süzülən un yığılır ovcunun içinə. Bu proses həm də bir "Ol!" prosesidi. Ona görə ağrılı keçir. Və...**

Mənim qəhrəmanımı Azərbaycanda əli qələm, dili söz, yaddaşı tarix yaşadan hər kəs tanıyır. Bunu ona görə xüsusi vurğulayıram ki, o özü də qələmin, sözün, həm də tarixin bir parçasıdı. Yəni qələm adamıdı, söz yaradıcısıdı. Və nəhayət, ictimai-siyasi həyatda, həm də Azərbaycan tarixində izi olan, yeri olan bir vətəndaşdı. Bax, bu böyük titulun sahibi olan bir Azərbaycan vətəndaşı barəsində düşüncələrimi kağıza köçürmək qərarı verəndə öncə ağlımdan gəlib keçdi ki, barəsində kifayət qədər yazılar yazılmış, fikirlər söylənmiş, özü də təkcə Azərbaycan coğrafiyasında deyil, onun hüdudlarından kənarda da tanınan İNSAN barəsində oxuduqlarımı bir sapa düzüb qəzet səhifəsinə çıxarım. Sonra anladım ki, mənim kimlərinsə yamsılamağım olacaq. Ona görə fikrimdən daşındım. Sonra istədim ki, kitablarından, əsərlərindən yazım. Hətta ara-bir cibimə qoyub özümlə səfərlərə apardığım əl boyda "Xeyrəddin Qocanın gülüşü" dərhal düşdü yadıma. Bir az fikrə getdim. Hətta yazımın adını da təxmini müəyyənləşdirdim:

**- "Cibimdəki kitabın müəllifinə demək istədiklərim"...**

Etiraf edim ki, yazmağa başlayanda bu istəyimdən də ayrıldım. Elə bil ki, kimsə mənə özüm bildiyim kimi, özüm gördüyüm kimi bir yazı yaz! - dedi. Və beləcə başladım yazını yazmağa. Özü də stolumun üstündəki şəkilləri gözdən keçirə-keçirə. Bu şəkillər Xeyrəddin müəllimin ömründən anlardı. Hərəsi bir yerdə, fərqli məqamda, fərqli ovqatlarda çəkilib. Təkcə bu şəkillərlə söhbət etmək adama könül rahatlığı verir. Öncə ona görə ki, şəkillərin hamısının üzündə, gözündə təbəssüm və dərin düşüncə var. Açıqca hiss olunur ki, o təbəssümün arxasındakı zaman, ovqat, hətta yaşamın özü bir-birini məhz iradə gücünə tamamlayır. Bu mənim əminliklə üzərində dayandığım fikridi. Çünki Xeyrəddin müəllimin həm dərin bir kədəri, bir narahatlığı pərdələyən təbəssümü onun daxili narahatçılığını çinar yarpaqları kimi silkələnməklə, kəsməklə ifadə olunduğunu göstərir. Ona görə çinar yarpaqlarını bir obraz kimi ortaya çəkirəm ki, o yarpaqların xışıltısı da, pıçıltısı da tamam fərqlidi. Və bir də "Cibimdə gəzdirdiyim kitab"ın ilk səhifəsində tez-tez müraciət etdiyim bir fikir var. Onu olduğu kimi təqdim edirəm:

**"Xeyrəddin Qoca tələbə vaxtı kirayənişin yaşayırdı. Qapı döyülür:**



**- Xeyrəddin Qoca burada yaşayır?**

**- Xeyr!**

**- Bəs, siz kimsiniz?**

**- Xeyrəddin Qoca.**

**- Deyirsiniz burada yaşamırsınız?**

**- Yəni bu yaşayışdı ki?"**

Yəqin ki, oxudunuz bu kiçik dialoqu. Amma oxumadınızsa bir az səbrlə, tələsmədən sözbəsöz yenidən oxuyun. Və sonra özünüzdən soruşun:

**- Bu yaşamaqdı ki?!**

Mən cavab haqqını hər kəsin öz ixtiyarına buraxıram...

Bəli, onu tanıdığım zamanın ölçüsü, çəkisi, boyu-buxunu yadımdan çıxıb. Amma onunla üzbəüz etdiyim söhbətlər, telefon danışıqlarımız az qala nöqtəbənöqtə yaddaşımda yazılıb qalır. Bilirsiniz niyə? Ona görə ki, Xeyrəddin müəllim həmişə harasa tələsir. Necə deyərlər, bir ayağı qaçaraqdı. Nəyisə elə bil ki, qovur, yetişmək istəyir ona. Mən bu barədə öncə özümdən soruşmaq istəyirdim. Amma bir az səbrli oldum və günlərin bir günü "Xeyrəddin Qoca" foto-kitab əlimə keçdi. Və qəribədi ki, hər kəs kitabı, elə mən də, üz qabığı tərəfdən vərəqləyirdim. Necə oldusa özüm də bilmədən kitabın son səhifəsini açdım. Həmin səhifədə Xeyrəddin müəllim öz qələmi, öz dəsti-xəttiylə yazmışdı: "Mən həyata qarşı nikbinəm. Lakin həyatın əbədi olmadığını, bir vaxtlar hamı kimi mən də bu dünyada qalmayacağımı bildiyimdən, qəlbim daim insanlara xeyirxahlıq hissiylə aşıb daşır. Bəlkə məni yaşadan, mənə qol-qanad verən də elə bu hisslərdi..."

Zənnimcə, kitabın sonunda verilmiş bu özünüifadə, bu özünü etiraf Xeyrəddin Qocanın niyə tələsdiyini, niyə öz üzərinə götürdüyü missiyanı yerinə yetirmək üçün tələsdiyini açıqlamış olur. Bax, bu yerdəcə yadıma bir vaxtlar "Ədalət" qəzetində işləmiş mərhum jurnalist Pərviz Əliyev düşür. İndiki kimi yadımdadı, onun bir narahatlığı, bir maddi-mənəvi sıxıntısı olanda ilk xatırladığı, ilk yadına sadaldığı kişilərdən biri məhz Xeyrəddin müəllim idi. Görünür, həmkarım Xeyrəddin müəllimin ürəyinə bələd imiş...

***

Çox qəribədi, Xeyrəddin Qoca öz tutduğu yolu, öz əqidəsini, məsləkini birmənalı şəkildə bəyan etdiyi gündən indiyə qədər nöqsanları da deməkdən çəkinməyib. Bunu ona görə vurğulayıb "qəribə" adlandırıram ki, mən bu cür hallarla çox az-az rastlaşmışam. Yəni görmüşəm ki, adamlar irəli çəkiləndə, yeni vəzifə kürsüləri qazananda yavaş-yavaş dəyişməyə, vəzifənin, onu irəli çəkənlərin havasına "oynamağa" üstünlük verir. Bir növü özündən, öz dünyasından uzaqlaşır. Məhz Xeyrəddin Qocanın həm millət vəkili, həm Azərbaycanın İstanbul şəhərində baş konsulu, həm də bütün bu dediklərimdən öncəki yazıçı-publisist mövqeyi mənsub olduğu əqidədaşlarının, eləcə də vəzifəli şəxslərin nöqsanlarını deməyə mane ola bilməyibdi. Elə indi də fikirləşirəm ki, Xeyrəddin müəllim bir növü yumuşalsaydı, şəraitə uyğunlaşsaydı, onda özü olmayacaqdı. Onu öncə tanıdığımız şəkildə içimizin bir küncünə qoyub dəyişmiş Xeyrəddin Qocanı isə sıradan biri sayacaqdıq. Bu fikirlər nə qədər özəl olsa da, amma bilirəm ki, məni dəstəkləyənlər, mənimlə razılaşanlar kifayət qədərdi. Elə Xeyrəddin müəllimin özü də dediyim məntiqi o əl boyda kitabında yazır: **"Xeyrəddin Qoca Milli Məclisin deputatı olanda tez-tez İstanbuldan Bakıya gəlirdi. Bir gün ondan soruşurlar ki, Məclisə getmişkən bir iş görə bilirsənmi?**

**Xeyrəddin müəllim cavab verir:**

**- Mən orada texnik işləyirəm, düymə basıram, vəssalam! Başqa bir işim yoxdur".**

Düşünürəm ki, üzünüzə təbəssüm gəldi. O təbəssümü bir anlıq kənara qoyub siz də düşünün. Onda görəcəksiniz ki, sizin qarşınızdakı 70 yaşını qeyd etməyə hazırlaşdığımız Xeyrəddin Qocadı!

Təbii ki, həyatın çətinliklərini, sıxıntıları yaşamaq və həmin o çətinliklərdən, sıxıntılardan dözümün, iradənin, ən əsası isə savadlı, məntiqli mübarizənin gücünü çıxmaq hər adama nəsib olmur.

Bax, mənim uzaqdan, yaxından tanıdığım Xeyrəddin müəllim də həmin dediyim yolun hər iki səmtini öz gücünə yararaq keçib gəlibdi. Yəni büdrəməkdən qorxmadığı üçün qalib gəlməyi, ayaqda durmağı bacarıb. Bir az da obrazlı desəm, onun bir bir yazıçı-jurnalist kimi özəl prinsipi olub. Hərdən mənə elə gəlir ki, bu məhz "Həyatın içindən çıxanların" prinsipidi.Yəni onlar təkcə Qoqolun şinelindən çıxmayıblar. Sözlərinə duz qatanda, yumor əlavə edəndə o sözün həm milliliyinə, həm zaman və ərazi çərçivəsinə elə otuzdurublar ki, təbəssüm canına yayılanda səni həm də iynə kimi sancıb. Səni vadar edib ki, güldüyün qədər də düşün. Anla ki, nəyə gülürsən? Niyə gülürsən?

Bu söylədiyim fikirləri mən elə Xeyrəddin Qocanın özünün biz oxuculara ünvanlanan yazısında dönə-dönə oxuyub yaddaşıma köçürmüşəm. Ona görə də onun gülüş dolu əsərlərinə, bu əsərlərdəki qəhrəmanlarına təkcə gülməmişəm, həm də acımışam.

Yazımın bu yerində bir anlıq pauza edirəm. Bu da səbəbsiz deyil. Ona görə bu addımı atıram ki, mən yazıçı-publisist, sabiq millət vəkili, müstəqil Azərbaycanın İstanbuldakı baş konsulu barəsində, bir az da dəqiq ifadə etsəm, onun 70 illik yubileyi ilə bağlı düşüncələrimi kağıza köçürəndə deyəsən hissə qapıldım. Unutdum onu oxuculara yenidən təqdim etməyi. Ona görə də hər kəsin yaxşı tanıdığı Xeyrəddin müəllimin bioqrafiyasına nəzər yetirirəm.

Qısa şəkildə vurğulamaq istəyirəm ki, o, 70 il öncə Ağdaş rayonunun Qülbəndə kəndində doğulub. Pedaqoji Universitetini, Jurnalist Sənətkarlığı İnstitutunu bitirib, müxtəlif mətbu orqanlarda çalışıb. Qələmiylə, özü də məntiqli və kəsərli fikirləriylə oxucunun qəlbinə yol tapıb. Bir az obrazlı desəm, düzü düz, əyrini əyri deməyi heç vaxt unutmayıbdı. Ona görə də evdə, ailədə də, öz çevrəsində də, cəmiyyətdə də onun XEYRƏDDİN QOCA YERİ! - olub. Məncə bu cür yer əxlaqın, mənəviyyatı və ən vacibi isə milli dəyərlərə və bütövlükdə millətə sevgisi olan hər kəsin ürəyindən keçən ən böyük arzulardan biridi. Amma hamı arzusuna çatmır ki! Məncə öz yerini haqq etmək müstəvisində Xeyrəddin müəllim qaliblərdəndi.

**... Bu yazını elə burda bitirmək istəyirəm. Ona görə ki, Xeyrəddin müəllim kimi insanlar barəsində sözü, fikri çəkib uzatmaq hardasa onların obrazına kölgə salmaqdı mənə görə. Yəni öz yeri olanı başqalarına yeri olan kimi göstərmək görünən dağı göstərmək kimi bir şeydi. Dağlı isə göstərmək yox, görmək lazımdı. Mən də bu məntiqlə Xeyrəddin müəllimi yubileyi münasibətilə təbrik edirəm. Necə deyərlər, kasıb söz büdcəmdən onun oxucusu kimi bu istəyi ifadə etməyi könlümün səsilə gerçəkləşdirdim.**

**Əbülfət MƏDƏTOĞLU**